# Mədəniyyətlərin qovşağında



**Bu il dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünü qeyd edən Azərbaycan həm dünya miqyasında, həm də türkdilli ölkələr arasında xüsusi yeri olan nüfuzlu və inkişaf etmiş dövlətdir. Qədim və zəngin tarixə malik olan ölkəmiz əsrlər boyu mədəniyyətlərin və sivilizasiyaların kəsişmə nöqtəsində yerləşib. Bütün bunlar Azərbaycan mədəniyyətinin təşəkkülündə, tolerantlığın formalaşmasında, xalqın ana dilinin ən yüksək elmi və bədii fikirləri ifadə etmək imkanlarının genişlənməsində mühüm rol oynayıb.**

Ölkənin tarixi keçmişi keşməkeşlidir. Lakin müxtəlif ictimai-siyasi-iqtisadi formasiyalarda müxtəlif növ dövlətçilik ənənələrinə malik olmuş Azərbaycan xalqı hər zaman özünün milli ruhunu qorumuş, azadlıq və müstəqillik ideallarına sadiq qalmışdır.

Müstəqilliyinin bərpasından ötən 25 ildə Dağlıq Qarabağ münaqişəsi ölkədə müəyyən gərginlik yaratmışdı. Lakin buna baxmayaraq Azərbaycan bütün sahələrdə böyük uğurlar qazandı, xalqın rifah halı yüksəldildi, ölkənin sosial-iqtisadi inkişafında böyük nailiyyətlər əldə olundu.

Nailiyyətləri saymaqla qurtarmaz. Ölkədə gedən abadlıq və quruculuq işləri yalnız paytaxtı deyil, bölgələri də əhatə edir. Belə bölgələrdən biri ölkənin şimal-qərbində yerləşən, vaxtilə Şəki xanlığının mərkəzi olmuş Şəki rayonudur. Şəkidə qorunub saxlanan Xan sarayı, Karvansara və digər tarixi abidələr bu şəhərin qədim memarlığını, sənətkarlıq nümunələrini həmişə möhtəşəm şəkildə təqdim edir. Gözəl təbiəti, dadlı-ləzzətli mətbəxi ilə turistləri cəlb edən Şəki 2016-cı ildə "Türk dünyasının mədəni paytaxtı" elan olunmuşdur.

Xəzərin incisi sayılan Bakı da gündən-günə gözəlləşir. Şərq-Qərb memarlığının vəhdətini əks etdirən bu şəhər öz gözəlliyi və əzəmətli müasir tikililəri ilə dünyanın istənilən paytaxt şəhəri ilə rəqabət aparmağa qadirdir. Memarlıq siması öz keçmişini və milli ornamentlərini qayğıkeşliklə qoruyaraq ən cəsarətli layihələri reallaşdırmaqla gələcəyə doğru addımlayır.

Hazırda beynəlxalq ictimaiyyət Azərbaycanı bir çox nailiyyətlərə imza atan etibarlı tərəfdaş kimi tanıyır. Ölkə həm də nüfuzlu beynəlxalq tədbirlərə və idman yarışlarına evsahibliyi edir. 2016-cı ilin aprel ayının 25-dən 27-dək Birləşmiş Millətlər Təşkilatının Sivilizasiyalar Alyansının 7-ci Qlobal Forumunun Bakıda keçirilməsi faktı dünyanın bu ölkəyə etimad və ehtiramının parlaq sübutudur. Bu mühüm tədbir Prezident İlham Əliyevin bu ilin Azərbaycanda "Multikulturalizm ili" elan etdiyi bir zamanda baş tutdu.

Müstəqilliyin nailiyyətləri sırasında bir mühüm hadisəni də qeyd etmək yerinə düşər. 2015-ci ildə Bakıda çox yüksək səviyyədə, incə zövqlə və mükəmməl şəkildə təşkil edilmiş I Avropa Oyunları dünya miqyasında qarşılıqlı anlaşma və ehtiram dəyərlərinin təbliğinə böyük töhfə verdi, idman sahəsində olduqca möhtəşəm və mədəni hadisə oldu. Həmin idman yarışları ortaq türk irsinin bir hissəsi olan zəngin Azərbaycan mədəniyyətinin tam çalarları ilə təqdim edilməsinə böyük imkan yaratdı.

Digər mədəniyyətlərə və dinlərə ehtiram, tolerantlıq türkdilli xalqlar arasında dərin köklərə malik dəyərdir. Bu xalqlar geniş coğrafi ərazidə məskunlaşaraq müxtəlif dinlərin bir sıra qolları da daxil olmaqla islam, xristianlıq, iudaizm, buddizm, şamanizmə etiqad edirlər. Türkdilli xalqların mədəniyyətləri coğrafi məskunlaşma və digər icmalarla sıx qarşılıqlı əlaqələr baxımından müxtəliflik təşkil edir, həmçinin onların xarici görünüşü də müxtəlif irqlərə məxsus xüsusiyyətləri özündə birləşdirir.

Məlumdur ki, hər bir vətəndaşın və ailənin rifahı, firavanlığı dövlət üçün prioritet məsələdir. Azərbaycanda dövlət bu sahədə də strateji məqsədlərinə nail olmuşdur. Başqa sözlə, iqtisadiyyatın şaxələndirilməsi müsbət nəticələr vermişdir. Yerli istehsal mallarının daim artan kəmiyyət və keyfiyyəti dediklərimizə sübutdur.

Hökumət sosial məsələlərin həllində bütün mümkün addımları atır. Əməkhaqları və pensiyalar əhəmiyyətli dərəcədə artıb, ölkədə yoxsulluq dərəcəsi 5 faizə enmişdir. Son 12 il ərzində Azərbaycanda 1 milyon 500 min iş yeri açılmışdır, onlardan 1 milyonu daimidir. Əhalinin sayı 9,7 milyona çatmışdır. Son 10 il ərzində sosial infrastrukturun inkişafı daha sürətlə inkişaf etmişdir: 400-dən artıq tibb müəssisəsi, 2700 məktəb və müxtəlif təyinatlı 50-yə yaxın idman obyektləri tikilmiş və ya tamamilə yenilənmişdir.

Azərbaycan hökumətinin uzunmüddətli strateji məqsədləri "Azərbaycan - 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında əks olunmuşdur. Bu konsepsiya ölkənin yeni mərhələyə qədəm qoyduğu bir zamanda gələcək hədəf və prioritet məqsədləri müəyyənləşdirir. Konsepsiyada qeyd edildiyi kimi, Azərbaycan hazırda dünya miqyasında hökm sürən qlobal iqtisadi böhran fonunda tədricən iqtisadiyyatın diversifikasiyasına nail olmuş və neft sektorundan asılılığı əhəmiyyətli dərəcədə azaltmışdır. Azərbaycan üçün postneft dövrü artıq başlayıb və hökumətin bu istiqamətdə atdığı addımlar öz səmərəsini göstərir.

Prezident İlham Əliyev 2015-ci ildə Türkiyədə keçirilən G20 Sammitinə dair xüsusi buraxılışda - "Ümumi strategiyanın formalaşdırılması" sərlövhəli məqalədə bu istiqamətlər barədə qeyd etmişdir ki, "İqtisadiyyatın ənənəvi sektorları yenidən qurulmuş, turizm, hava və hərbi müdafiə sənayeləri, informasiya-kommunikasiya texnologiyaları və digər sahələr yaradılmışdır. Azərbaycan öz 2 peykini işə salmaqla kosmik dövlətlər sırasına keçmişdir".

Bir sözlə, yola saldığımız 25 ilə nəzər salarkən görürük ki, iqtisadi nailiyyətlər kifayət qədərdir. Faktlara müraciət edək:

- *Azərbaycanda ümumi daxili məhsul (ÜDM) 3,4 dəfə artmışdır;*
- *Qeyri-neft sektoru və sənaye istehsalında 3 dəfə artım olmuşdur;*
- *2003-cü ildən Azərbaycan iqtisadiyyatına 200 milyard dollara yaxın investisiya cəlb edilmişdir;*
- *Kənd təsərrüfatı sektorunda 6,6 faizədək artım qeydə alınmışdır;*
- *Dünya İqtisadi Forumu iqtisadi göstəricilərinə və dünya miqyasında rəqabətqabiliyyətinə görə Azərbaycanı 40-cı yerdə sıralamışdır.*

Onu da vurğulamaq lazımdır ki, son illər Azərbaycan hökuməti yerli istehsala çox böyük əhəmiyyət verir. Həm dövlət, həm də özəl sektorlara maliyyə vəsaitləri ayrılmışdır. Ölkədə biznes mühitinin yaxşılaşdırılması, həmçinin iqtisadiyyatda və maliyyə sektorunda şəffaflığın təmin edilməsi məqsədilə ciddi iqtisadi islahatlar aparılır.

Məlum olduğu kimi, Azərbaycan qlobal enerji təhlükəsizliyində önəmli rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz boru kəmərləri kimi qlobal regional layihələrin həyata keçirilməsində aktiv iştirak edən Azərbaycan neft-qaz ehtiyatları ilə Avropanın enerji təminatında və qlobal enerji təhlükəsizliyində mühüm rol oynayır.

Böyük İpək Yolunun ayrılmaz hissəsini təşkil etməklə, Azərbaycan geostrateji mövqeyi ilə nəqliyyat dəhlizlərinin yaradılmasında da geniş potensiala malikdir. Ölkə regional nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilməklə real şəkildə Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin mərkəzi olmuşdur. 2014-cü ildə istismara verilmiş Bakı Beynəlxalq Dəniz Limanı, həmçinin müasir beynəlxalq hava nəqliyyatı sistemi, yaxın gələcəkdə istifadəyə veriləcək Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı-Aktau bərə xəttinin inkişafı nəqliyyat sektorunun İpək Dəmir Yolu, İpək Dəniz Yolu, İpək Enerji Yolu, İpək Fiber Optik Yolu, Mədəniyyətlərin İpək Yolu və s. kimi yeni məzmunlarının meydana çıxmasına rəvac vermişdir.

Xüsusi qeyd etmək istərdik ki, Azərbaycan qardaş türkdilli ölkələrin arasında əlaqələrin inkişafına çox böyük töhfələr vermişdir. Bu yaxınlarda Bakıda Prezident İlham Əliyevin təşəbbüsü ilə türk mədəniyyətini, incəsənətini və tarixi dəyərlərini dünyaya təşviq etmək məqsədilə Türk Mədəniyyəti və İrsi Fondu yaradılmışdır. 2010-cu ildən fəaliyyətə başlamış TürkPA Katibliyinin Bakı şəhərində yerləşməsi də təsadüfi deyil. Tarixdə ilk türkdilli respublika - Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə məhz burada yaradılmışdır. Qısa ömürlü olsa da, bu cümhuriyyət türk dünyasına davamlı miras qoymuşdur.

Ölkənin son 25 ildə əldə etdiyi nailiyyətlərdən danışarkən Dağlıq Qarabağ münaqişəsindən yan keçmək çətindir. Türkdilli Ölkələrin Parlament Assambleyasının (TürkPA) hər zaman həlli uzadılmış bu münaqişənin Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində, ərazi bütövlüyü və suverenliyinə hörmət prinsipinə əsaslanaraq, sülh yolu ilə həllinə çağırmışdır. Münaqişənin həlli regionda uzunmüddətli sabitliyə, rifah və ölkələr arasında qarşılıqlı perspektivlərinə imkan yaradar.

Azərbaycan Respublikasının ən son nailiyyətləri hökumətin tarazlaşdırılmış, uzunmüddətli və düşünülmüş siyasəti ilə yanaşı, Azərbaycan xalqının, bu millətin öz ana vətənini dinamik inkişaf edən iqtisadiyyatla müasir firavan dövlətə çevirmək ideyasına sadiqliyi nəticəsində mümkün olmuşdur. Ölkə elmin, təhsilin və gənc neslin inkişafına nəhəng sərmayələr qoymuşdur. Şübhəsiz ki, bundan sonra da qabaqcıl elmi-texnoloji potensialı, yüksək səviyyəli insan resursları mədəniyyətlərin və sivilizasiyaların yolayrıcında yerləşən Azərbaycan üçün parlaq üfüqlər açacaqdır.

***Jandos ASANOV,***
***TürkPA Baş katibi***